ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ

# S Ə R Ə N C A M I

№ 30 «25» 02 2020 il

Rayonun ictimai həyatında fərqlənən bir qrup şəxslərin mükafatlandırılması haqqında

Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Cənab İlham Əliyevin 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Həmin il müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkədə sabit siyasi sistemin, dayanıqlı iqtisadi strukturun intensiv formalaşması ili oldu. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. Sözügedən islahatlar Binəqədi rayonunda da sakinlərimizin sosial rifahını yüksəltmiş, mədəni və ictimai həyatında nailiyyətlər əldə etməyə zəmin yaratmışdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.24-cü və 6.8-ci maddəsini rəhbər tutaraq

## QƏRARA ALIRAM:

1. Rayonun sosial-iqtisadi, mədəni inkişafında, ictimai həyatında fərqlənən bir qrup şəxs Rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanı ilə təltif olunsun:

- Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri- Cahangir-zadə İskəndər Kamil oğlu

CS CamScanner ilə tarandı

- Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri- Əliyev Yəhya İkram oğlu
- "1646 Sakinlərin Müraciət Xidməti-" nin rəsi Səfərov Anar Bahadur oğlu
- İnformasiya təminatı və təhlil sektorunun müdiri- Quliyeva Aynur Hüseyn qızı
- Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi- Zamanov Elmin Elbəyi oğlu
- İstehsalat Tikinti Mexanizasiya Şirkəti- Nəbiyev Amil Akif oğlu
- Binəqədi elektrik enerjisi təhcizatı və satışı idarəsinin rəisi- Rzayev Paşa Əflatun oğlu
- Binəqədi rayon su-kanal idarəsinin rəsi müavini- İbrahimov Nemət Yavər oğlu
- Qarabağ Qazisi- Hacıyev Zaur Namiq oğlu
- Kapital Bank ASC-nin Binəqədi filialının müdiri- Rüstəmov Elvin Zakir oğlu
- 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin məsləhətçisi - Qafarov Zaur Alxan oğlu
- Qarabağ Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Binəqədi rayon filialının sədri İlham Qayıbzadə Yusif oğlu
- Ə.D.Məlikov adına 6 saylı Birləşmiş şəhər xəstaxanasının baş həkimi Məmmədov Bəyalı Bəxtiyar oğlu
- "Cihaz" İB,"Sənaye CİHAZ" Elmi İstehsalat Müəssisəsinin aparıcı mühəndisi Zərgərov Vüqar Cümşüd oğlu
- 1646 Sakinlərin müraciəti xidmətinin əməkdaşı Verdixanov Həmid Mirətdin oğlu

2. Bu sərəncamdan irəli gələn məsələlərin həyata keçirilməsi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyevə tapşırılsın.
3. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevaya həvalə edilsin.

Elxan Allahverdiyev

CamScanner ilə